SAHMAN
SANITATION AND HYGIENE METHODS AND NORMS

Azərbaycan Respublikasının
Dövlət Turizm Agentliyi

azərbaycan
TURİZM BÜROSU

# COVID-19 virusunun yayılmasının qarşısını almaq məqsədilə davranış qaydaları



# Qəbul və qeydiyyat

1. Girişdə təmassız termometr vasitəsilə qonağın hərarəti ölçülməlidir. 37.5°C-dən yüksək temperaturu olan şəxslərin girişinə icazə verilmir.

2. İşçilər, qonaqlar və digər şəxslər arasında minimum 2 metr ara məsafəsi təmin olunmalıdır.

3. Qəbul masasında növbə yerləri döşəmə işarələri ilə ayrılmalıdır.

4. Qonaqlara qapalı məkanlarda maska taxmaq və ara məsafə tələblərinə riayət etmək barədə xəbərdarlıq edilməlidir.

5. İlkin tibbi yardım çantasında aşağıdakılar olmalıdır:
   - bakterisid dezinfeksiyaedici (səthlər üçün təmizləyici salfetlər)
   - tibbi maska, tibbi eynək, üz sipəri
   - əlcəklər (birdəfəlik)
   - qoruyucu önlük (birdəfəlik)
   - uzun xalat
   - biotəhlükəli tullantılar üçün birdəfəlik torba

6. Mehmanxanada tətbiq olunan profilaktik tədbirlər, habelə digər xidmətlər (tibb, aptek xidmətləri və s.) barədə qonaqlara məlumat verilməlidir.

7. İşçilər tibbi maskalardan və əlcəklərdən istifadə etməlidirlər.

8. Qeydiyyat masasında dezinfeksiyaedici vasitə və əlavə maskalar olmalıdır.

9. Kompüter, printerlər, telefon və sensor ekranlar təmizlik məhsulları ilə dezinfeksiya olunmalıdır.

10. Otaq kartı (açar), dəsmal kartı, qələm, qeydiyyat bölməsinin zəngi hər istifadədən sonra dezinfeksiya olunmalıdır.

11. Qonaqlar “check-out”dan bir saat əvvəl qeydiyyat masasına məlumat verməlidirlər.

SAHMAN
SANITATION AND HYGIENE METHODS AND NORMS

Azərbaycan Respublikasının
Dövlət Turizm Agentliyi

azərbaycan
TURİZM BÜROSU

# COVID-19 virusunun yayılmasının qarşısını almaq məqsədilə davranış qaydaları



## Qonaq otaqları

1. Otaqlar qonaq getdikdən sonra və gəlməzdən əvvəl təmizlənməli, dezinfeksiya edilib, havalandırılmalıdır.
2. Əlavə yastıqlar, örtüklər və dekorativ yastıqlar kimi materiallar kənarlaşdırılmalıdır.
3. Xidmət zamanı hər otaqda ayrıca birdəfəlik əlcəkdən istifadə olunmalıdır.
4. Qida məhsulları bağlı paketlərdə təqdim edilməli, elektrik çay və qəhvə maşınları dezinfeksiya olunmalıdır.
5. Lazımi sayda təmiz dəsmal, tualet kağızı, sadə əl sabunu, şampun (birdəfəlik istifadə) kimi vasitələr təmin edilməlidir.
6. Hər qonaq üçün ayrıca maska və əl dezinfektantı olmalıdır.
7. Təmir və texniki xidmətlə bağlı müştəri müraciət və problemləri videozəng vasitəsilə həll edilməlidir.
8. Texniki xidmət personalı otağa əlcək və maskadan istifadə etməklə daxil olmalıdır.
9. Bir otağın təmizlənməsi üçün ayrılan vaxt artırılmalıdır. Qonaq otaqda olduqda, təmizlik işləri aparmaq olmaz.
10. Yataq dəsti dəyişdirilərkən silkələmək olmaz.
11. Tekstil camaşırxanaya aparılarkən ağzı sıx bağlanan torba və ya çantaya qoyulmalı və 60-90°C temperaturda yuyulmalıdır.
12. Yuyulması mümkün olmayan parça əşyalar buxarlı təmizləyici ilə təmizlənməlidir.
13. Otaqlar qonaqlar çıxışdıqdan ("check out" etdikdən) 3 saat təmizlənə bilər.
14. Kondisioner və havalandırma sistemlərinin filtrləri tez-tez dəyişdirilməli, havalandırma barmaqlığı təmizlənib, dezinfeksiya olunmalıdır.

SAHMAN
SANITATION AND HYGIENE METHODS AND NORMS

Azərbaycan Respublikasının
Dövlət Turizm Agentliyi

azərbaycan
TURİZM BÜROSU

# COVID-19 virusunun yayılmasının qarşısını almaq məqsədilə davranış qaydaları



## Mətbəxlər

1. Qida məhsulları təmiz və üstü qapalı şəkildə saxlanmalı və onlara mümkün qədər az sayda işçi heyəti toxunmalıdır.
2. İşlənməmiş qida məhsulları və hazır qidalar mətbəxdə ayrı saxlanmalıdır.
3. İşçi heyəti mətbəxə yalnız iş geyimində və fərdi qoruyucu vasitələrlə daxil olmalıdır.
4. Kənar şəxslərin mətbəxə girməsi qadağandır.
5. Mətbəxdə möhkəm və ağzı bağlanan zibil qutuları, yalnız fərdi qoruyucu vasitələrin atılması üçün ayrıca tullantı qabları yerləşdirilməlidir.
6. Gigiyenik baryerlər, sterilizasiya cihazları, əllərin və bədənin gigiyenası üçün zəruri olan alət və avadanlıqlar təmin olunmalıdır.
7. Mehmanxana ərazisində istifadə edilən xidmət alətləri qabyuyan maşında 60°C və ya daha yuxarı temperaturda yuyulmalıdır.

SAHMAN
SANITATION AND HYGIENE METHODS AND NORMS

Azərbaycan Respublikasının
Dövlət Turizm Agentliyi

azərbaycan
TURİZM BÜROSU

# COVID-19 virusunun yayılmasının qarşısını almaq məqsədilə davranış qaydaları



# Ümumi istifadədə olan ərazilər

1. Giriş, lobbi, dəhliz kimi ümumi istifadədə olan ərazilərdə əl dezinfektantları və salfetlər yerləşdirilməli, əlavə maskalar təmin edilməlidir.
2. Liftin döşəməsində 1 metr sosial məsafə işarələri olmalıdır. Lift ancaq ümumi tutumun üçdə biri həddində yüklənə bilər.
3. Məkanın müəyyən edilmiş tutumundan artıq sayda şəxsin girişinə icazə verilmir.
4. Lobbi, lift önləri kimi ərazilərdə döşəmələrdə 2 metr sosial məsafə qaydasına uyğun nişanlar olmalıdır.
5. Uşaq əyləncə məkanlarından istifadəyə icazə verilmir.
6. Nərd, domino, loto və digər oyun alətləri kənarlaşdırılmalıdır.
7. Qapı tutacaqları, liftlərin düymələri, su dispenserlərinin xarici səthləri və əl ilə təmas olunan hissələr dezinfeksiya olunmalıdır.
8. Lobbidə kiçik oturma əraziləri qurulmalı, bu ərazilərdə qonaqlara xidmət telefonları olmamalı və ya istifadəsi məhdudlaşdırılmalıdır.
9. Ümumi istifadədə olan telefonların və avadanlıqların əl ilə təmas olunan hissələri dezinfeksiya olunmalıdır.
10. Bankomatların təmas edilən səthləri, düymələri, pul mübadiləsi ekranı bir saatdan bir təmizlənməli və dezinfeksiya olunmalıdır. Bankomatların yanında əl dezinfektantları olmalıdır.
11. Qida avtomatları, tullantı qutularının qapaqları və masalar dezinfeksiya olmalıdır.

SAHMAN
SANITATION AND HYGIENE METHODS AND NORMS

Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi

azərbaycan TURİZM BÜROSU

# COVID-19 virusunun yayılmasının qarşısını almaq məqsədilə davranış qaydaları



# İctimai iaşə zonaları

1. Əl dezinfektantları, əlavə maskalar və digər gigiyena vasitələri təmin edilməlidir.
2. Giriş və çıxış zamanı qonaqların əllərini dezinfeksiya etməsinə nəzarət edilməlidir.
3. Qonaqların maskasız girişinə icazə vermək olmaz.
4. Əraziyə dair sıxlıq normalarına riayət edilməlidir.
5. 2 metr ara məsafəsi qaydasına uyğun bütün ərazilərdə xüsusi döşəmə işarələri olmalıdır.
6. Masalar arasında 2 metr, oturacaqlar arasında isə 1 metr məsafə olmalıdır.
7. Masaların eni 0,7 metrdən az olduğu təqdirdə, qonaqların qarşı-qarşıya, lakin çarpaz qaydada oturması təmin edilməlidir.
8. Bar masalarında oturacaqlar arasında 1 metr məsafə təmin edilməlidir. Bar masalarının eni ən azı 1 metr olmalı, işçi heyəti maskadan istifadə etməlidir.
9. Hər bir masada əl dezinfektantı olmalıdır.
10. Masa örtüyü yerinə birdəfəlik kağız örtüklərdən, yaxud digər növ masa örtüklərindən istifadə edilməlidir. Hər qonaq tərəfindən istifadədən sonra masa gigiyena vasitələri ilə təmizlənməlidir.
11. Parça salfetlərdən istifadə etmək tövsiyə olunmur.
12. Masalarda birdəfəlik istifadə üçün duz, istiot, salfet və digər məhsullar olmalıdır.
13. Metal çəngəl, qaşıq və bıçaqları üstüörtülü şəkildə saxlanmalı və əllə təmas olmadan qonaqlara təqdim edilməlidir.
14. Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin müvafiq metodiki göstərişlərinə də əməl edilməlidir.

SAHMAN
SANITATION AND HYGIENE METHODS AND NORMS

Azərbaycan Respublikasının
Dövlət Turizm Agentliyi

azərbaycan
TURİZM BÜROSU

# COVID-19 virusunun yayılmasının qarşısını almaq məqsədilə davranış qaydaları



# Otaq xidməti

1. Qonaqlar və işçi heyət arasında birbaşa əlaqə məhdudlaşdırılmalı və telefon vasitəsilə əlaqə təmin edilməlidir.
2. Qida və digər ləvazimatlar təmassız çatdırılmalıdır.
3. Birdəfəlik istifadə üçün olan qablar və çəngəl-bıçaq dəstlərindən istifadə tövsiyə olunur.
4. Qida məhsullarını istifadə olunmuş qablar olan arabalarda daşımaq olmaz.
5. Qida məhsullarının daşınması və istifadə olunmuş qabların yığılması üçün istifadə edilən arabalar təmizlənib, dezinfeksiya edilməlidir.

SAHMAN
SANITATION AND HYGIENE METHODS AND NORMS

Azərbaycan Respublikasının
Dövlət Turizm Agentliyi

azərbaycan
TURİZM BÜROSU

# COVID-19 virusunun yayılmasının qarşısını almaq məqsədilə davranış qaydaları



## Əyləncə, idman və istirahət məkanları

1. Girişdə təmassız termometr vasitəsilə qonağın hərarəti ölçülməlidir. 37,5°C-dən yüksək temperaturu olan şəxslərin girişinə icazə verilmir.

2. Yaşı 65-dən yuxarı olan, yüksək təzyiq, ürək, şəkərli diabet və digər xroniki xəstəlikləri olan şəxslərə ehtiyatlı olmaları barədə xəbərdarlıq edilməlidir.

3. Əl dezinfektantları, əlavə maskalar və digər gigiyena vasitələri təmin edilməlidir.

4. Əvvəlcədən sifariş və ya rezervasiya xidməti təşkil edilərək, bu barədə qonaqlara məlumat verilməlidir.

5. Qonaqların giriş və çıxış saatlarının qeydiyyatını aparılmalı və ən azı 14 gün müddətində saxlanmalıdır.

6. Qonaqlar arasında 2 metr sosial məsafə qaydasına uyğun döşəmə işarələri yerləşdirilməlidir.

7. Minimum 4 saatdan bir avadanlıqlar və çox toxunulan səthlər təmizlənməlidir.

8. Kitab və jurnal kimi vasitələr kənarlaşdırılmalıdır.

9. Xidmət göstərilərkən ən azı 1 metr sosial məsafə tələbinə riayət edilməlidir.

10. İşçi heyətinin istirahət bölmələrində də 2 metr sosial məsafə qaydasına və maskadan istifadə tələbinə əməl edilməlidir.

11. Su qablaşdırılmış şəkildə təqdim olunmalıdır.

12. Ventilyatorlardan istifadə etmək olmaz.

13. Sanitariya qovşaqlarında avtomatik əl qurutma vasitələrindən istifadəyə icazə vermək olmaz. Bunun əvəzinə tək istifadəlik kağız dəsmallar qoyulmalıdır.

14. İstifadə edilmiş maskaların atılması üçün ayrıca qapalı torbalar yerləşdirilməlidir.

SAHMAN
SANITATION AND HYGIENE METHODS AND NORMS

Azərbaycan Respublikasının
Dövlət Turizm Agentliyi

azərbaycan
TURİZM BÜROSU

# COVID-19 virusunun yayılmasının qarşısını almaq məqsədilə davranış qaydaları



# Hovuzlar və çimərliklər

1. Hovuzların suyundakı xlor konsentrasiyası açıq hovuzlarda 13 ppm, qapalı hovuzlarda 11,5 ppm səviyyəsində saxlanmalıdır.
2. Girişdə və insan axını çox olan yerlərdə əl dezinfektantları yerləşdirilməlidir.
3. Dəsmallar paketlənmiş şəkildə təqdim olunmalı və hər gün dəyişdirilməlidir. Hər istifadədən sonra dəsmallar 60°C və ya daha yuxarı temperaturda yuyulmalıdır.
4. Qonaqların hovuza girməzdən əvvəl duş alması üçün xəbərdarlıq nişanı asılmalıdır.
5. Qrup şəklində məşqlərin, suyadalma dərslərinin və digər fəaliyyətlərin təşkilinə yol vermək olmaz.
6. Təkadamlıq su fəaliyyətlərindən (sörfinq, skuter və s.) sonra əşyalar və avadanlıqlar, xilasedici jiletlər təmizlənib dezinfeksiya edilməlidir.
7. Duş kabinələri, sanitariya qovşaqları və digər məkanlar tez-tez havalandırılmalıdır.
8. Qapalı hovuzların ventilyasiya, hava mübadiləsi sisteminin, nəmalma cihazının düzgün işləməsi təmin edilməlidir.
9. Tez-tez təmas olunan səthlər mütəmadi dezinfeksiya edilməlidir.
10. Şezlonqlar və digər avadanlıqlar, ictimai istifadədə olan duşlar, dəsmal götürmə masaları təmizlənib dezinfeksiya edilməlidir.
11. Xilasedicilər fərdi qoruyucu vasitələr və üz siperindən istifadə etməlidirlər.
12. Süni tənəffüs maskaları, torba-maska cihazı kimi vasitələr təmin edilməlidir.

Azərbaycan Respublikasının
Dövlət Turizm Agentliyi

# COVID-19 virusunun yayılmasının qarşısını almaq məqsədilə davranış qaydaları



# Sauna, hamam, SPA

1. Hamam, sauna, buxar otaqlarından kənarda maskadan istifadə edilməlidir.
2. Geyinib-soyunma otaqlarından istifadə məhdudlaşdırılmalıdır.
3. SPA prosedurları zamanı fiziki təmasın qarşısını alınmalı, əks təqdirdə, proseduru həyata keçirən şəxs və qonaq üçün üz maskası təmin edilməlidir.
4. Hər qonaq üçün ayrıca kisə, lif, süngər kimi vasitələr qoyulmalıdır.
5. Ümumi istifadədə olan əşyalar hər istifadədən sonra yuyulub dezinfeksiya edilməlidir.
6. Mikrobioloji keyfiyyət yoxlamaları qanunvericiliyə uyğun şəkildə aparılmalıdır.
7. Duş kranları, su kranları, sabun dispenserləri və digər avadanlıqlar sensorlu olmalıdır.
8. Hamam, sauna, buxar otaqları və cakuzilərdə sıxlıq normasına – bir nəfərə 4 $m^2$ əməl olunmalıdır.
9. SPA prosedurundan əvvəl və sonra əl dezinfektantından istifadə edilməlidir.

SAHMAN
SANITATION AND HYGIENE METHODS AND NORMS

Azərbaycan Respublikasının
Dövlət Turizm Agentliyi

azərbaycan
TURİZM BÜROSU

# COVID-19 virusunun yayılmasının qarşısını almaq məqsədilə davranış qaydaları



# Fitnes

1. Geyinib-soyunma otaqlarından istifadə məhudlaşdırılmalıdır.
2. İşçilər və qonaqların idman etmədikləri zaman maskalardan istifadəsi təmin edilməlidir.
3. Komanda şəklində keçirilən və ya insanların bir-biri ilə yaxın təmasına ehtiyac olan (futbol, voleybol, taekvando, güləş və s.) təlim məşqlərə icazə verilmir.
4. Təmassız məşqlər sıxlıq normaları və 2 metr ara məsafə tələbini pozmamaq şərtilə həyata keçirilməlidir.
5. İdman salonlarında qonaqların gözləməsinə yol vermək olmaz.
6. Qəzet, jurnal və s. kimi vasitələri idman salonlarında saxlamaq olmaz.
7. İdman alətlərinin yanında dezinfektantlar yerləşdirilməlidir.
8. Sabit və ya hərəkətli bütün idman alət və cihazları hər istifadədən sonra təmizlənib dezinfeksiya edilməlidir.
9. İdman alətlərinin təmas olunan səthlərinin istifadəçilər tərəfindən silinməsi üçün məlumatlandırıcı lövhələr asılmalı və səsli anonslar verilməlidir.
10. Birdəfəlik tekstil vasitələrindən istifadə edilməli və ya hər istifadədən sonra ən azı 60°C temperaturda yuyulmalıdır.
11. Dəsmallar bağlı paketdə və təmiz şəkildə, bir məsul işçi tərəfindən təmin edilməlidir.
12. Havalandırma sistemlərinə texniki xidmət və filtrlərin dəyişdirilməsi təmin edilməlidir. Kondisioner və ventilyatorlardan istifadə edilməsinə yol vermək olmaz.